# Tarix yazan Astaranın qəhrəman oğlu Rameş

**Astara rayonunun Şahağacı kəndində dünyaya göz açmış Rameş Gülverdi oğlu Zəkiyev 44 günlük İkinci Qarabağ müharibəsində canını doğma Azərbaycana fəda etməklə özünə 19 yaşında şərəfli, örnək sayılan əbədi bir həyat qazandı. İndi onun adı qəhrəmanlıq dastanına dönərək astaralıların dilindən düşmür. Böyük də, kiçik də Rameşi özünə qürur yeri, iftixar mənbəyi bilir. Dövlət də öz sədaqətli oğluna yüksək etimad göstərdi. Rameş Zəkiyev ölümündən sonra "Vətən uğrunda" medalına layiq görüldü.**



Vətənə, torpağa bağlılıq Rameşi el-obanın gözündə tez ucaldır. Dünyanın xeyirxah əməllərinə tapınmaqla insanlara fayda vermək onun həyat fəlsəfəsi olur. Müqəddəs dəyərlərə can atan bu, Vətən sevdalısı 2019-cu ildə həqiqi hərbi xidmətə yola düşəndə gördüyü gözəl işlərlə artıq ürəklərdə özünə yer edə bilmişdi.

Rameşin əsgərlik həyatı düşmənlə üzbəüz olan Ağdamın Baharlı kəndindən başlanır. Vətən qarşısında borcunu canla-başla yerinə yetirir, yüksək əxlaqi keyfiyyətləri ilə əsgər yoldaşlarının, komandirlərin sevimlisinə çevrilir. Xidmətdə fərqlənir, bir qayda olaraq hərbi təlimlərdən üzüağ çıxır, məqamında yağıya qalib gəlmək üçün hərbi sirlərinə dərindən yiyələnir. Həm də düşmən tapdağında olan müqəddəs Qarabağ torpaqların azadlığı naminə hər an, hər dəqiqə Ali Baş Komandanın döyüş əmrini gözləyir və mübarizə meydanında işğala məruz qalan hər qarış torpağın qisasını almaqla düşmənə qan qusduracağına and içir.

Nəhayət Rameşin tərxis olmasına üç ay qalmış gözlənilən gün gəlir. Qarabağ uğrunda qanlı döyüşlər başlanır. Düşmənin üstünə şığıyan igid əsgər müharibənin ilk günündən mərdlik nümunəsi göstərir. Müharibənin ən qaynar nöqtəsində döyüşməklə mənfur erməni faşistlərinə böyük itkilər verir.

15 oktyabrda Ağdamın Hacıməmmədli kəndinin düşməndən təmizlənməsində ağır müharibə gedir. Rameş burada da neçə-neçə erməni əsgərini gəbərdir. Vətənə olan sevgisini odun-alovun içində düşmənə vurduğu amansız zərbələrlə bir daha sübut edir. Ancaq bu, Rameşin sonuncu döyüşü olur. Sinəsini Vətənə tuşlanan güllərə sipər etməklə onun qeyrətini hər şeydən uca tutur. Ən əsası igid əsgərin şərəfli ölümü 30 ildən sonra Vətən torpağın bir parçasında üç rəngli Azərbaycan bayrağının dalğalanmasına səbəb olur.

Rameş Vətən, torpaq uğrunda canından keçdi. Məhz buna görə də xalq öz qəhrəman övladını qəlbində yaşadır, adını Vətənlə bir çəkir.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*